# Sara OSMANLI-75



Hörmətli Sara xanım!

Sizi - tanınmış ədəbiyyatşünas alimi, qarşılıqlı ədəbi əlaqələr sahəsində görkəmli mütəxəssisi 75 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Siz Bakı Dövlət Universitetinin Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda əmək fəaliyyətinə başlamısınız. Yarım əsrə yaxındır ki, milli-mənəvi dəyərlərimizin keçmişi və indisinin keşiyində duran bir ünvanda çalışırsınız. Sizin elmi və şəxsi həyatınız bu İnstitutla bağlıdır. Yarım əsrə yaxın elmi-təşkilati fəaliyyətiniz dövründə Respublikamızda və xaricdə sanballı nəşrlərdə ədəbiyyatşünaslıq elmimizi ləyaqətlə təmsil etmisiniz.

"60-70-ci illər Azərbaycan nəşrinin problemləri rus tənqidində" mövzusunda yazdığınız əsərə görə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almısınız. Dövrün mövcud ideoloji qəlibləri sizi 60-70-ci illər Azərbaycan nəsrinin ədəbi hərəkata gətirdiyi, milli ədəbi qaynaqlara söykənən sənətkarlıq axtarışlarını üzə çıxarıb dəyərləndirməyə mane olmamışdır. Siz Azərbaycan ədəbiyyatşünaslığının nəzəri-metodoloji problemlərini, xüsusən müqayisəli ədəbiyyatşünaslıq məsələlərini tədqiq etdiyiniz dövrün və onu təmsil edən ədəbi şəxsiyyətlərin yaradıcılığı fonunda öyrənmisiniz. "Azərbaycan müqayisəli ədəbiyyatşünaslığının təmayül meyilləri: 1950-1980-ci illər" mövzusunda yazdığınız doktorluq dissertasiyası ədəbi-elmi mühitdə sanballı bir tədqiqat işi kimi dəyərləndirildi.

Sizin çap olunmuş 100-ə yaxın məqaləniz XX əsr ədəbiyyatımızın ən görkəmli simalarının yaradıcılığını milli və regional ədəbi kontekstdə, dünya ədəbi gedişatının fonunda tədqiq etməyin nümunələridir.

Hörmətli Sara xanım! Siz filologiya elmləri doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi kimi ədəbiyyatşünaslıq elmimizi müxtəlif elmi kürsülərdə ləyaqətlə təmsil edirsiniz. Ədəbiyyatşünas alim, professional tərcüməçi kimi ədəbiyyatımızın təbliği və tədqiqində yorulmadan çalışırsınız. Sizə bu müqəddəs işinizdə yaradıcılıq uğurları, cansağlığı arzulayırıq.

***Azərbaycan Yazıçılar Birliyi***

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 10 dekabr.- S. 26.